**Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ PLENUMUNUN**

**Q Ə R A R I**

**28 iyun 2002-ci il** **№ 2** **Bakı şəhəri**

Cinayət törətmiş şəxslərin islah olunması nəinki onlara törətdikləri cinayətə görə şəxsiyyətlərinə və əməllərinin xarakterinə uyğun qanuni, obyektiv və ədalətli cəza verilməsindən, həmçinin azadlıqdan məhrum edilmiş məhkumlara cəzaçəkmə müəssisəsinin növünün düzgün tətbiq edilməsindən xeyli dərəcədə asılıdır.

Cəzaların icrası qanunvericiliyi məhkumların qanun qarşısında bərabərliyi, cəzaların icrasının fərdiləşdirilməsi, məcburetmə tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, cəzaların islahedici təsirinin artırılması prinsiplərinə əsaslanır. Bu prinsipləri rəhbər tutan cinayət qanunvericiliyi cinayətin xarakterindən və məhkumun şəxsiyyətindən asılı olaraq onun hökmlə cəza çəkməli olduğu cəzaçəkmə müəssisəsinin növünü müəyyən edir. Hazırkı qanunvericiliyə əsasən məhkəmələr hər hansı mülahizəni əsas götürməklə məhkuma qanunda birbaşa göstəriləndən fərqli cəzaçəkmə müəssisəsi növünü təyin etmək səlahiyyətinə malik deyildir.

Məhkəmə təcrübəsi göstərir ki, yeni cinayət və cəzaların icrası qanunvericiliyinə görə cəzaçəkmə müəssisələri sistemində dəyişiklik edildiyindən 2000-ci il sentyabrın 1-dək baş vermiş cinayətlərə görə məhkum edilmiş şəxslərə cəzaçəkmə müəssisələri növünün təyin edilməsində səhvlərə yol verilir.

Əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş, lakin məhkumluqları ödənilmiş və ya üzərlərindən götürülmüş şəxslərə, habelə sovet dövründə və ya hazırkı MDB ölkələrində məhkum edilmiş, məhkumluqları ödənilməyən və ya üzərlərindən götürülməyən şəxslərə yeni cinayət əməli üçün cəza verilərkən cəzaçəkmə müəssisəsinin növünün təyin edilməsi məsələsində fikir ayrılıqları mövcuddur.

Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə və tərbiyə müəssisəsinin növünün müəyyən edilməsinə dair qanunvericiliyin düzgün və eyni cür tətbiq edilməsi təcrübəsində meydana çıxan məsələlərlə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

**QƏRARA ALIR:**

**1.** Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə və tərbiyə müəssisəsinin növünü müəyyən edən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – CM) 56 və 85-ci maddələrinin tələblərinə sözsüz əməl edilməsinin vacibliyi məhkəmələrin diqqətinə çatdırılsın. Nəzərə almaq lazımdır ki, bu və ya digər cəzaçəkmə və ya tərbiyə müəssisəsinin növünün məhkəmənin mülahizəsinə görə müəyyən edilməsini qanun istisna edir.

Cəzaçəkmə müəssisəsi növünün dəyişdirilməsi Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (bundan sonra – CİM) 70-ci maddəsində nəzərdə tutulan hallarda məhkəmə tərəfindən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – CPM) 514-cü maddəsinə müvafiq olaraq həyata keçirilir.

**2.** Cinayətlərin və ya hökmlərin məcmusu qaydasında azadlıqdan məhrum etmə cəzası təyin edilərkən cəzaçəkmə müəssisəsinin növü, yaxud cəzanın bir hissəsinin həbsxanada çəkilməsi hər bir cinayətə görə ayrılıqda yox, yalnız qəti cəza müəyyən edildikdən sonra göstərilməlidir.

Əgər şəxs həm qəsdən, həm də ehtiyatsızlıqdan bir neçə cinayət əməli törətmişdirsə və həmin şəxs cinayətlərin məcmusu qaydasında 5 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilərsə, məhkəmə cəzanın çəkilməsini o zaman məntəqə tipli cəzaçəkmə müəssisəsində müəyyən edə bilər ki, təqsirli şəxsə qəsdən törədilmiş cinayətə görə azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəza təyin edilmiş olsun.

**3.** CM-in 56.1.3-cü maddəsinin tələbinə görə cinayətlərin residivi zamanı azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxsə cəzanın çəkilməsi o zaman ciddi rejimli cəzaçəkmə müəssisəsində müəyyən edilir ki, o, əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş olsun. Nəzərə alınmalıdır ki, CM-in 18.4-cü maddəsinə müvafiq olaraq törədilmiş cinayətin residiv hesab edilməsi məsələsi həll edilərkən ehtiyatsızlıq üzündən törədilmiş cinayətlərə və şəxsin 18 yaşına çatanadək törətdiyi cinayətə görə məhkumluqları nəzərə alınmır.

**4.** Əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxslər dedikdə, keçmişdə törətdikləri cinayətlərə görə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzalarını müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaçəkmə müəssisələrində, həbsxanalarda, azadlıqdan məhrum edilmiş şəxslər üçün müalicə müəssisələrində, təsərrüfat və məişət xidməti işlərinə görə istintaq təcridxanalarında saxlanılmış (CİM-in 66-cı maddəsi) və yeni cinayət hadisəsi törədilənədək qanunla müəyyən edilmiş qaydada məhkumluğu götürülməmiş və ödənilməmiş şəxslər başa düşülməlidir.

Əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxslər anlayışına, o cümlədən aşağıdakılar aiddir:

a) azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş, lakin CM-in 71.3, 71.4 və 71.5-ci maddələrində nəzərdə tutulmuş qaydada cəza çəkmək üçün cəzaçəkmə müəssisəsinə göndərilmiş şəxs;

b) CİM-in 69-cu maddəsində göstərilən azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və hökm qanuni qüvvəyə mindikdən sonra cəzasını çəkmək üçün təsərrüfat və məişət xidməti üçün istintaq təcridxanalarında, müalicə müəssisələrində və ya həbsxanalarda saxlanılan şəxs;

c) azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, cəzasının bir hissəsini çəkmiş və CM-in 78.1 və 78.2-ci maddələrinə əsasən azadlıqdan məhrum etmə yerlərindən azad olunmuş şəxs;

ç) azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, cəzasının bir hissəsini çəkmiş və CM-in 79-cu maddəsinə müvafiq olaraq barələrində cəzanın çəkilməsi təxirə salınmış qadınlar;

d) azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, cəzasının bir hissəsini çəkdikdən sonra cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmiş şəxs;

e) başqa dövlətin (o cümlədən Müstəqil Dövlətlər Birliyi ölkələrinin) hökmləri ilə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və sonradan cəza çəkmək üçün Azərbaycan Respublikasına verilmiş, hökmün icraya qəbul edilməsi barədə məhkəmə qərarına müvafiq olaraq, Azərbaycan Respublikasında cəzaçəkmə müəssisəsində cəza çəkmiş şəxslər, həmçinin SSRİ-nin ləğvinə qədər onun tərkibinə daxil olmuş müttəfiq respublikaların məhkəmələrinin hökmləri ilə məhkumluğu olan şəxs.

**5.** Aşağıdakılar əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxslər hesab edilə bilməz:

a) islah işləri və ya azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, sonradan CM-in 49.3 və 53.4-cü maddələrinə müvafiq olaraq həmin cəzaları məhkəmə tərəfindən azadlıqdan məhrum etmə cəzası ilə əvəz edilmiş şəxs;

b) cinayət törətmiş, lakin CM-in 54.2-ci maddəsinə müvafiq olaraq məhkəmə tərəfindən azadlıqdan məhrum etmə cəzası intizam xarakterli hərbi hissədə saxlama cəzası ilə əvəz edilmiş şəxs;

c) məhkəmənin hökmü ilə azadlıqdan məhrum etmə növündə cəzaçəkmə müəssisəsində cəza çəkən, yuxarı instansiya məhkəməsi tərəfindən haqqındakı hökm ləğv edilərək işin icraatına xitam verilən və ya hökm dəyişdirilərək haqqında azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəza təyin edilən və ya şərti məhkum edilən şəxs;

ç) azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, lakin amnistiya aktı və ya əfv edilməsi ilə əlaqədar cəza çəkməkdən azad edildiyinə görə faktiki olaraq cəzaçəkmə müəssisəsində cəza çəkməmiş şəxslər, yaxud CM-in 80-ci maddəsinə müvafiq olaraq ittiham hökmünün icrası müddətinin keçməsi ilə əlaqədar barəsində hökm icra edilməyən şəxs;

d) qətimkan tədbiri qismində həbsdə olma müddəti hədlərində azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, lakin cəzaçəkmə müəssisəsində cəza çəkməmiş şəxs;

e) azadlıqdan məhrum etmə yerlərində cəza çəkən şəxs birinci hökm çıxarılanadək törətdiyi başqa cinayətə görə azadlıqdan məhrum etmə cəzasına məhkum edildiyi halda;

ə) qüvvədə olan qanunvericiliklə cinayət və cəzanı aradan qaldıran, həmçinin qüvvədə olan qanunvericiliyə əsasən törədilməsinə görə azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutulmayan əmələ görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzaçəkmə müəssisəsində cəzanı çəkib qurtarmış şəxs;

f) 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş CM-in 42 və 42.1-ci maddələrinə müvafiq olaraq hökmün icrası təxirə salınmaqla əlaqədar cəzanı çəkib qurtarmış şəxs (əgər məhkum təxirə salma müddətinin başa çatması ilə əlaqədar məhkəmənin qərardadı ilə cəza çəkməkdən azad edilmişsə, yaxud onun barəsində amnistiya aktı tətbiq edilmişsə və yaxud əfv etmə ilə cəza çəkməkdən azad edilmişsə və ya qanunla müəyyən edilmiş müddətin keçməsi ilə əlaqədar hökm icra edilməmişdirsə);

q) 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş CM-in 23-1-ci maddəsinə müvafiq olaraq əməyə mütləq cəlb edilməklə azadlıqdan məhrum olunmağa şərti məhkum edilmiş şəxs;

ğ) 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş CM-in 31-ci maddəsinə, hazırda qüvvədə olan CM-in 54-cü maddəsinə əsasən müvafiq olaraq islah işləri cəzası hauptvaxtda saxlama cəzası ilə əvəz edilmiş və ya intizam batalyonunda, intizam xarakterli hərbi hissədə saxlama cəzası çəkmiş şəxslər.

**6.** CM-in 56.1.4-cü maddəsinin mənasına görə CM-in 82.3-cü maddəsinə müvafiq olaraq əfv qaydasında ömürlük azadlıqdan məhrum etmə cəzası müddətli azadlıqdan məhrum etmə cəzası ilə əvəz edildikdə, cəza xüsusi rejimli cəzaçəkmə müəssisəsində çəkilməlidir (CİM-in 116.1-ci maddəsi).

**7.** *Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56.1.3-cü və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 114-cü maddələrinə müvafiq olaraq xüsusilə ağır cinayət törətməyə görə ilk dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş, habelə cinayətlərin residivi zamanı (əgər məhkum əvvəllər azadlıqdan məhrum növündə cəza çəkmişsə) və cinayətlərin xüsusi təhlükəli residivi zamanı qadınlar üçün azadlıqdan məhrum etmə cəzasının çəkilməsi ciddi rejimli cəzaçəkmə müəssisələrində müəyyən edilir.* Qalan hallarda isə (CM-in 56.2-ci maddəsində göstərilən qaydada həbsxanada cəzaçəkməyə məhkum edilmiş qadınlar istisna olmaqla) azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş qadınlara (ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə 5 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum

edilmiş, məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən qadınlar istisna olmaqla) ümumi rejimli cəzaçəkmə müəssisəsi təyin edilir. [1]

**8.** Xüsusilə ağır cinayətləri törətməyə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün, habelə cinayətlərin xüsusi təhlükəli residivinə görə məhkəmələr CM-in 56.2-ci maddəsinə əsasən cəzanın bir hissəsini həbsxanada çəkilməsinə dair qəbul etdikləri qərarı əsaslandırmaqla yanaşı, həm də hökmdə göstərməlidirlər ki, məhkumlar cəzanın həbsxanada çəkilməli hissəsini çəkib qurtardıqdan sonra cəzanın qalan hissəsini kişilər, xüsusilə təhlükəli residivinə görə xüsusi rejimli cəzaçəkmə müəssisəsində, qadınlar isə xüsusilə ağır cinayətləri törətmələrinə görə ~~ümumi rejimli,~~ *və* cinayətlərin xüsusi təhlükəli residivi zamanı ~~isə~~ ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməlidirlər. [2]

**9.** Məhkəmələr nəzərə almalıdırlar ki, CİM-in 70-ci maddəsinin müəyyən etdiyi qaydada məhkum azadlıqdan məhrum etmə cəzasının qalan hissəsini çəkmək üçün həbsxanadan digər növ cəzaçəkmə müəssisəsinə göndərilərkən, onun istintaq təcridxanasında saxlanıldığı müddət hökmlə məhkuma təyin edilmiş həbsxana müddətinə hesablanmalıdır.

**10.** Nəzərə almaq lazımdır ki, keçmiş cinayət qanunvericiliyindən fərqli olaraq, yeni cinayət qanunvericiliyində (CM-in 83-cü maddəsi) "məhkumluğun ödənilməsinin axımı müddətinin kəsilməsi" kimi müddəa yoxdur. Bu, o deməkdir ki, birinci cinayətə görə məhkum edilən şəxs məhkumluğun ödənilməsi üçün qanunla müəyyən edilən müddətdə yeni cinayət törətdikdə məhkumluğun ödənilməsi müddətinin axımı kəsilmir. Yəni hər bir məhkumluq üçün onun ödənilmə müddəti müstəqil hesablanmalıdır.

Məhkuma ciddi rejimli və ya xüsusi rejimli cəzaçəkmə müəssisəsi təyin edilərkən əsas olmuş bir və ya bir neçə məhkumluq cəza çəkilən zaman ödənilərsə, bu zaman məhkəmə tərəfindən hökmlə məhkuma təyin edilmiş cəzaçəkmə müəssisəsinin növü dəyişdirilə və məhkum başqa növ cəzaçəkmə müəssisəsinə keçirilə bilməz. Belə ki, CİM-in 114 və 116-cı maddələrinə müvafiq olaraq ciddi və ya xüsusi rejimli cəzaçəkmə müəssisələrində müvafiq olaraq residivə, təhlükəli residivə və ya xüsusi təhlükəli residivə görə cinayətlər üstündə məhkum edilmiş şəxslər saxlanılır.

**11.** CM-in 18.4-cü maddəsinə müvafiq olaraq CM-in 83-cü maddəsi ilə nəzərdə tutulmuş qaydada götürülmüş və ya ödənilmiş məhkumluqlar, həmçinin həmin Məcəllənin 81.2 və 82.4-cü maddələrinə müvafiq olaraq amnistiya və ya əfvetmə aktı ilə götürülmüş məhkumluq cinayətlərin residivinin tanınması zamanı nəzərə alına bilməz və ona görə də ciddi və ya xüsusi rejimli cəzaçəkmə müəssisəsi təyin edilməsi üçün əsas ola bilməz.

Kişilərə ciddi rejimli cəzaçəkmə müəssisəsi cinayətlərin residivi zamanı (əgər məhkum əvvəllər azadlıqdan məhrum etmə cəzası çəkmişsə) və yetkinlik yaşına çatdıqdan sonra, xüsusilə ağır cinayət törətdikdə təyin edilir.

**12.** Hökm çıxarılanadək 18 yaşı tamam olmamış şəxs azadlıqdan məhrum etmə cəzasına məhkum edilərsə (CM-in 55.1-ci maddəsi), məhkəmə CM-in 85.5-ci maddəsinə müvafiq olaraq onlara ümumi və ya möhkəm rejimli tərbiyə müəssisəsi təyin edir.

Ümumi və ya möhkəm rejimli tərbiyə müəssisələri CM-in 85.5-ci maddəsinə görə yalnız azadlıqdan məhrum etmə cəzasına məhkum edilən yetkinlik yaşına çatmayanlara təyin edilir. Ona görə də yetkinlik yaşına çatmadığı dövrdə qəsdən cinayət (o cümlədən xüsusilə ağır cinayət) törətmiş şəxs hökm çıxarılan vaxt yetkinlik yaşına çatarsa və azadlıqdan məhrum etmə cəzasına məhkum edilərsə, o, cəzasını çəkmək üçün ümumi rejimli cəzaçəkmə müəssisəsinə, ehtiyatsızlıqdan cinayət törətməyə görə 5 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edildikdə isə məntəqə tipli cəzaçəkmə müəssisəsinə göndərilməlidir.

**13.** 18 yaşına çatmış və tərbiyə müəssisələrində saxlanılmış məhkum cəzanın icrası qaydalarını pozduqda, CİM-in 129-cu maddəsinə müvafiq olaraq tərbiyə müəssisəsi müdiriyyətinin təqdimatına əsasən məhkəmənin qərarı ilə ümumi rejimli cəzaçəkmə müəssisəsinə keçirilə bilər.

18 yaşına çatmış və cəzanın icrası qaydalarını pozan məhkumun tərbiyə müəssisəsindən ümumi rejimli cəzaçəkmə müəssisəsinə keçirilməsinin məqsədəmüvafiqlik məsələsi həll edilərkən məhkəmələr tərbiyə müəssisəsində cəza çəkilən müddət ərzində məhkumun davranışı və şəxsiyyətini xarakterizə edən halları, həmçinin tərbiyə müəssisəsində saxlanılan digər yetkinlik yaşına çatmamış məhkumlara təsirini nəzərə almalıdır.

Məhkumun tərbiyə müəssisəsindən ümumi rejimli cəzaçəkmə müəssisəsinə keçirilməsi CPM-in 514 və 520-ci maddələrində nəzərdə tutulmuş qaydada cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən həll edilir.

**14.** CM-in 10-cu maddəsinə müvafiq olaraq, 2000-ci il sentyabrın 1-dək cinayət törətmiş şəxslər barəsində cəzaçəkmə müəssisəsinin növü, məhkumun vəziyyəti ağırlaşmırsa, CM-in 56 və 85-ci maddələrinə müvafiq olaraq müəyyən edilir. Qalan hallarda cəzaçəkmə müəssisəsinin növü cinayət törədilərkən qüvvədə olan qanunun tələbləri nəzərə alınmaqla təyin edilir. Hazırkı qanunvericilikdə möhkəm rejimli cəzaçəkmə müəssisəsi növü nəzərdə tutulmadığından 2000-ci il sentyabrın 1-dən əvvəl cinayət törətmiş şəxslərə (əgər möhkəm rejimli islah əmək koloniyası növü təyin edilməli idisə) ümumi rejimli cəzaçəkmə müəssisəsi təyin edilməlidir.

**15.** Məhkəmələrə izah edilsin ki, azadlıqdan məhrum etməyə şərti məhkum etmə zamanı cəzaçəkmə müəssisəsinin növü təyin edilmir. Şərti məhkum edilmiş şəxs sınaq müddəti ərzində yeni cinayət (qəsdən və ya ehtiyatsızlıqdan) törədərsə, məhkəmə CM-in 71.4 və 71.5-ci maddələrinə əsasən şərti məhkum etmənin ləğv edilməsi məsələsini həll edərkən, CM-in 15-ci maddəsində təsbit edilmiş cinayətin təsnifatını nəzərə almaqla, cəzaçəkmə müəssisəsinin növünü CM-in 56-cı maddəsinin müəyyən etdiyi qaydalara uyğun olaraq təyin edir. Bu zaman şərti məhkum etmə, xüsusilə ağır cinayətə görə tətbiq edilmişdirsə, yaxud yenidən törədilmiş cinayət xüsusilə ağır cinayətlər sırasına aiddirsə, cəzanın çəkilmə yeri ciddi rejimli cəzaçəkmə müəssisəsində müəyyən edilməlidir. Əgər törədilmiş cinayətlərdən biri xüsusilə ağır cinayət hesab edilmirsə, məhkuma ümumi rejimli cəzaçəkmə müəssisəsi təyin edilməlidir.

Şərti məhkum edilmiş şəxs sınaq müddəti ərzində onun üzərinə qoyulmuş vəzifələri mütəmadi və qərəzli olaraq yerinə yetirməkdən boyun qaçırarsa, məhkəmə şərti məhkum etməni ləğv edərək hökmlə təyin edilmiş cəzanın icra olunması haqqında qərar çıxarırsa, CM-in 71.3-cü maddəsinə müvafiq olaraq CM-in 15 və 56-cı maddələrinin müəyyən etdiyi qaydalara uyğun cəzaçəkmə müəssisəsinin növünü təyin edir.

Ehtiyatsızlıq üzündən cinayət törətməyə görə azadlıqdan şərti məhrum edilmiş şəxs məhkumluğunun ödənilmədiyi dövrdə qəsdən ağır, az ağır və xüsusilə ağır cinayət törətdikdə axırıncı cinayətə görə azadlıqdan məhrum etmə cəzasına məhkum edilərsə və cəzaları CM-in 67.1 və 71.5-ci maddələrinə uyğun olaraq birləşdirilərsə, onlara qanunla ilk dəfə qəsdən ağır, az ağır və xüsusilə ağır cinayət törətmiş şəxslər üçün nəzərdə tutulan cəzaçəkmə müəssisəsi növü təyin edilməlidir.

**16.** Əvvəlki qanunvericilikdən fərqli olaraq mövcud qanunvericilik hər hansı səbəbdən bu və ya digər cəzaçəkmə və ya tərbiyə müəssisəsinin növünün məhkəmənin mülahizəsinə görə müəyyən edilməsini istisna edir. Bu səbəbdən işə Apellyasiya Məhkəməsində baxılarkən birinci instansiya məhkəməsinin cəzaçəkmə və ya tərbiyə müəssisəsinin növünü düzgün təyin etmədiyi aşkar edildiyi hallarda həmin məhkəmə iş üzrə bu barədə apellyasiya protesti və ya şikayəti verilməsindən, habelə məhkumun vəziyyətinin yüngülləşməsindən və ya ağırlaşmasından asılı olmayaraq, məhkumun cəza çəkməli olduğu cəzaçəkmə və ya tərbiyə müəssisəsinin növünü qanunvericiliyə uyğun

şəkildə dəyişdirməlidir. İşə daha yuxarı instansiya məhkəmələrində baxıldıqda da məsələyə bu mövqedən yanaşılmalıdır.

**17.** Bu qərarın qəbul edilməsi ilə əlaqədar, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Azərbaycan SSR məhkəmələri tərəfindən azadlıqdan məhrum edilən şəxslərə islah-əmək koloniyası növünün müəyyən edilməsi təcrübəsi haqqında" 02.06.1962-ci il tarixli, 4 №-li qərarı (sonrakı əlavə və dəyişikliklə) qüvvədən düşmüş hesab edilsin.

**S.C.HƏSƏNOVA**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 17 fevral 2012-ci il tarixli 1 nömrəli "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 28 iyun 2002-ci il tarixli qərarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı - *(Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsi).*

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 17 fevral 2012-ci il tarixli 1 nömrəli "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 28 iyun 2002-ci il tarixli qərarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 7-ci bəndin birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

"~~CM-in 56.1.3 və CİM-in 114-cü maddələrinə müvafiq olaraq məhkum edilmiş qadınlara ciddi rejimli cəzaçəkmə müəssisəsi yalnız cinayətlərin xüsusi təhlükəli residivi zamanı təyin edilə bilər.~~".

[2] 17 fevral 2012-ci il tarixli 1 nömrəli "Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünün məhkəmələr tərəfindən təyin edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 28 iyun 2002-ci il tarixli qərarına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı ilə 8-ci bənddə "ümumi rejimli," sözləri "və" sözü ilə əvəz edilmiş və həmin bənddən ikinci halda "isə" sözü çıxarılmışdır.